CEK KERUAK

# YOLDA

Tərcüməçi:
Bəhlul Abbasov

QANUN NƏŞRİYYATI

JACK KEROUAC

# ON THE
# ROAD

Cek Keruakın "Yolda" əsəri Bit nəsli hərəkatının ən parlaq nümunəsi və Amerika ədəbiyyatının klassik yol romanıdır. 1951-ci ildə yazılmış əlyazma dəfələrlə naşirlər tərəfindən rədd edilmiş və Keruak romanı 1957-ci ildə "Viking Press" tərəfindən nəşr olunana qədər fəal şəkildə redaktə etmiş və genişləndirmişdir. Roman 1940–1950-ci illərdə ABŞ-də gənc nəslin azadlıq, səyahət və özünüifadə axtarışlarını izləyir.

Müəllif özü romanı haqqında belə deyir: "Bu, həqiqətən də, iki katolik dostumun tanrı axtarışı ilə ölkəni gəzməsinin hekayəsidir. Və biz Onu tapdıq. Mən Onu San-Fransiskoda, Market-Stritdə səmada tapdım (həmin iki görüntü), Din isə tanrıya yolboyu yalvardı. Salehlər üçün başqa yol yoxdur: o, tanrının adı ilə tərləməlidir. Onu tapdıqdan sonra isə əbədi olaraq ilahiliyinə qərq olur və düzünü desəm, artıq bu barədə danışmağa ehtiyac yoxdur... "Yolda"nı yazmaq üç həftə çəkdi. 1951-ci ilin gözəl bir may ayı idi və mən Çelsidə (Manhettenin Aşağı Vest Sayd küçəsində) yaşayırdım. Romanda mən Bit nəslinin mahiyyətini əks etdirirəm".

# BİRİNCİ HİSSƏ

# 1

Arvadımdan ayrılandan az sonra Dinlə tanış olmuşdum. O vaxt ciddi xəstəlikdən yenicə qalxmışdım, bu barədə çox danışmayacağam, yalnız onu deyəcəyəm ki, xəstəliyim dəhşətli dərəcədə bezginlik yaradan ayrılıqla, bir də içimdə qövr eləyən hər şeyin ölü olması duyğusuyla bağlıydı. Din Moriartinin gəlişiylə həyatımın "yolda" deyə biləcəyim dövrü başladı. Mən əvvəllər də tez-tez Qərbə gedib ölkəni görməyi arzulayardım – cürbəcür planlar qurardım, amma bunlar elə xəyal olaraq da qalardı. Din ideal yol yoldaşıydı, o hətta yolda doğulmuşdu, 1926-cı ildə, Solt-Leyk-Sitidə, ata-anası öz öküz arabalarıyla Los-Ancelesə gedərkən. İlk dəfə onun adını Çed Kinqdən eşitmişdim, mənə Dinin azyaşlı cinayətkarların Nyu-Meksikodakı islah məktəbindən yazdığı bir neçə məktubu göstərmişdi. Məktublar məndə böyük maraq oyatmışdı, çünki müəllif çox sadə bir dildə, Çedin Nitşeylə bağlı hər şeyi və bildiyi digər gözəl, hikmətli kəlamları anlatmasını xahiş edirdi. Bir dəfə də, Karlo ilə həmin məktublar barədə danışarkən qərara gəlmişdik ki,

gərək bu heyrətamiz Din Moriartiylə mütləq tanış olaq. Bu lap çoxdan olmuşdu, onda Din də indiki kimi deyildi, sirlərlə əhatə olunmuş gənc bir dustaqdı. Sonra Dinin islah məktəbindən çıxdığını və ilk dəfə Nyu-Yorka səfər etməyə hazırlaşdığını eşitdik. Onun Merilu adında bir qızla evləndiyini də söyləyirdilər.

Bir gün universitet şəhərciyində dolaşarkən Çeddən və Tim Qreydən eşitdim ki, Din ispan məhəlləsi kimi də tanınan Şərqi Harlemdə isti suyu olmayan bir daxmada qalır. İncə-mincə gözəlçəsi Meriluyla Nyu-Yorka ötən gecə gəlmişdi. 50-ci küçədə şəhərlərarası avtobusdan düşüblər və qarınlarını doyuracaq bir yer axtararkən tində "Hektor"u görüblər. Din o vaxtdan Hektorun qəlyanaltıxanasını həmişəlik olaraq Nyu-Yorkun əsas rəmzi sayır. Pullarını böyük, şirəli pirojnalara və qaymaqlı qat-qat kekslərə xərcləyiblər.

O günlərdə Din, çoxdankı adəti üzrə, özünəməxsus bir tərzdə Meriluya: "Hə, əzizim, artıq Nyu-Yorkdayıq. Missuridən, xüsusən də mənə dustaqxana çəkişmələrini xatırladan Bunvill islah məktəbinin yanından keçərkən düşündüklərimin hamısını sənə danışmadığıma baxmayaraq, indi bir müddət sevgi-məhəbbət məsələlərini bir kənara qoyub, konkret iş planları qurmalıyıq..." – kimi şeylər deyib durdanurmuş.

Uşaqlara qoşulub o qızdırılmayan mənzilə getdim. Qapını Din açdı. Əynində təkcə alt tumanı vardı. Merilu divandan yerə tullandı. Biz gəlməmişdən qabaq Din mənzil sahibini mətbəxə yollamışdı, güman ki, qəhvə

dəmləməyə, özü isə eşq məşğələlərini bərpa eləmişdi, axı seks onun həyatda önəmli saydığı, tapındığı yeganə tanrıydı və bu tanrıya sədaqətini ancaq pul qazanmaq üçün işləmək məcburiyyətində olduqda pozurdu. Məşqçinin təlimatlarını dinlədiyi, bir sözü belə diqqətdən qaçırmadığı təəssüratı yaratmaq üçün durmadan "bəli-bəli", "oldu" deyən gənc boksçu kimi, təlaş içində gözlərini yerə dikib başını tərpədirdi. İlk görüşümüzdə Dini gənc Cin Otriyə bənzədib çox heyrətlənmişdim – boy-buxunu, ensiz budları, mavi gözləri və təmiz Oklahoma ləhcəsiylə qarlı Qərbin əsl qəhrəmanı kimiydi. Əslində, Meriluyla evlənib Şərqə gəlməzdən qabaq Koloradoda, Ed Vollun rançosunda işləmişdi. Merilu olduqca füsunkar, sarışın bir qızdı. Qızılı saçları dalğalı dənizi xatırladırdı. Divanın kənarında oturmuş, əllərini dizlərinin üstünə qoymuşdu. Heyrətdən geniş açılmış bozumtul-mavi gözlərini yerə dikmişdi. Çünki hələ Qərbdə olarkən haqqında çox eşitmiş olduğu Nyu-Yorkun o qaranlıq, darıxdırıcı daxmalarının birinə gəlib düşmüşdü və indi Modilyaninin sanballı bir kabinetdə bir dəri-bir sümük qalıb, yox olmağa üz tutmuş sürrealist qadını kimi nəyi isə gözləyirdi. Fəqət bu kiçik, şirin qız görüntüsü altında həm inanılmaz dərəcədə dəlisov, həm də qorxunc şeylər edə bilən biri vardı. O gecə hamımız pivə içirdik, qol güləşində gücümüzü sınayır, hava işıqlaşana qədər söhbətləşirdik. Səhər yeni başlayan günün boz işığı altında, külqabılardan yığdığımız siqaret kötüklərini tüstülədə-tüstülədə sakitcə oturarkən Din əsəbi halda yerindən

sıçradı, fikirli-fikirli var-gəl edib, o anda ən vacib şeyin Merilunu səhər yeməyi hazırlamağa və yeri süpürməyə məcbur etmək olduğuna qərar verdi.

– Başqa sözlə, biz gərək əldən iti olaq. Əzizim, yəni dediyim odur ki, əks təqdirdə planlarımızda, sanki bir qərarsızlıq var, onlarda dəqiqlik və müəyyənlik yox kimidir.

Sonra mən çıxıb getdim.

Bütün növbəti həftə boyunca Din Çed Kinqi ona yazıçılıq ustalığı dərsləri verməyə borclu olduğuna inandırmağa çalışdı. Çed də ona mənim yazıçı olduğumu, mənə müraciət edə biləcəyini dedi. O ara Din bir avtodayanacaqda iş tapmış, Hobokendəki mənzillərində – ora nədən köçdükləri heç tanrıya da məlum deyil, – Meriluyla dava eləmişdi. Merilunun da dəliliyi tutmuş, intiqam arzusuyla polisə xəbər vermiş, əsəbi halda Dinə qarşı uydurma, mənasız ittihamlar irəli sürmüşdü. Din də Hobokendən qaçmaq məcburiyyətində qalmış və gedəcək bir yer axtararkən, ağlına mənim Nyu-Cersidə, Patersonda bibimlə qaldığım ev gəlmişdi. Bir axşam evdə oturub işləyirdim. Birdən qapı döyüldü və Din peyda oldu.

Salam verib içəri girdi, qaranlıq dəhlizdə etinasızca, yellənə-yellənə addımlayaraq dedi:

– Xoş gördük, məni xatırladınmı, Din Moriarti? Gəlmişəm ki, necə yazmaq lazım olduğunu mənə öyrədəsən.

– Bəs Merilu haradadı? – deyə soruşdum.

Cavabında dedi ki, çox güman, özünü bir neçə dollara satıb və geri, Denverə gedib – "fahişə!" Sonra qonaq

otağında qəzet oxuyan bibimin yanında istədiyimiz kimi danışa bilmədiyimiz üçün pivə içmək bəhanəsiylə evdən çıxdıq. Bibim Dini görər-görməz onun dəli olduğuna qərar verdi.

Pivəxanada Dinə dedim:

– Bura bax, aşna, daha mənə də yox da... Bilirəm ki, bura gəlməyinin yeganə səbəbi yazıçı olmaq istəyin deyil, amma hər nə isə, deyim biləsən ki, bu işə bir həb mübtəlası enerjisiylə başlamaq lazımdır.

O da:

– Hə, əlbəttə, nə demək istədiyini yaxşı başa düşürəm, əslində, özüm də bütün o problemlərlə qarşılaşmışam. Amma mən Şopenhauerdəki dixotomiyadan asılı vəziyyətə gətirilməli olan bu amillərin gerçəkləşməsini istəyirəm, çünki daxilən qavranan hər cür... – və sair və ilaxır bu kimi, mənim az-çox anladığım, özünün isə heç nə anlamadığı şeylər söylədi.

O aralar nə dediyini heç özü də anlamırdı. Qısası, həqiqi intellektual olmaq üçün mövcud imkanlardan faydalanmağa çalışarkən islah məktəbində gənc bir dustaqdı və "həqiqi intellektuallar"dan eşitdiyi kəlmələri işlətməyi xoşlayır, amma hər şeyi qatma-qarışıq edirdi. Halbuki inandırıram sizi, başqa məsələlərdə bu qədər sadəlövh deyildi, üstəlik, bütün terminləri və jarqonları tam mənimsəməsi üçün bir neçə ay Karlo Marksla ünsiyyət qurması yetərli olmuşdu. Bütün bunlara baxmayaraq, yenə də sərsəmliyin digər səviyyələrində bir-birimizi başa düşə bilirdik. Odur ki, başqa bir iş tapana qədər